# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ

ABİTURİYENTİN

# YADDAŞ KİTABÇASI

*(“jurnalistika” ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanının (inşa) keçirilməsinə dair)*

Aşağıdakıları imtahana gətirmək qadağandır:



2026

## İMTAHANDA İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL ETMƏLİSİNİZ:

1. İmtahan günü buraxılış vərəqənizdə göstərilən vaxtda imtahan verəcəyiniz binanın qarşısına gəlin (bina haqqında məlumat imtahana buraxılış vərəqənizdə göstərilmişdir).
2. **İmtahana aşağıdakı sənədləri gətirin:**
    - **Şəxsiyyəti təsdiq edən sənədin əsli;**
        - Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqəsini (və ya ümumvətəndaş pasportu);
        - əcnəbilər icazə vəsiqələrini və (və ya) pasportlarını;
        - vətəndaşlığı olmayan şəxslər yaşadıqları ölkənin hüdudlarından kənara getmək üçün onlara verilən sənədlərini və ya icazə vəsiqələrini;
        - Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini;
        - qaçqın statusu almış şəxslər və onların ailə üzvləri qaçqın vəsiqələrini, onlara verilmiş yol sənədini;
        - beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədləri və ya icazə vəsiqələrini;
    - **İmtahana buraxılış vərəqəsi;**
3. **Abituriyent aşağıdakı hallarda imtahana buraxılmır:**
    - tələb olunan sənədlərdən biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda;
    - saxta sənəd təqdim etdikdə;
    - imtahan binasına imtahanın başlanmasına 15 dəqiqə qalmışdan sonra gəldikdə;
    - imtahan binasına sərxoş vəziyyətdə gəldikdə;
    - imtahan binasına imtahana gətirilməsi qadağan edilmiş əşyalarla daxil olmağa cəhd etdikdə.
4. Göstərilən sənədləri imtahan binasının giriş qapısında buraxılış rejimini həyata keçirən mühafizə əməkdaşlarına təqdim edib yoxlamadan keçdikdən sonra imtahana buraxılış vərəqənizdə göstərilmiş müvafiq kodlu zala gedin.
5. İmtahan zalında texniki qurğularla (monitor, klaviatura, qulaqlıq və s.) ehtiyatlı davranın.

## ABİTURİYENTİN İMTAHAN ZALINDA GÖRƏCƏYİ İŞLƏR

1. İmtahan zalına daxil olarkən sənədlərinizi təqdim edin və qeydiyyatdan keçin.

2. İmtahan zalında sizin üçün ayrılmış kompüterin qarşısında əyləşin və ekrandakı göstərişləri diqqətlə izləyin.
3. Ekrandakı şəxsi məlumatların düzgün qeyd olunduğunu diqqətlə yoxlayın. Hər hansı bir uyğunsuzluq aşkar etdikdə dərhal zal nəzarətçisinə müraciət edin.
4. İmtahan proqramının istifadəsi və imtahan qaydaları ilə tanış olmaq üçün ayrılmış vaxt başa çatdıqdan sonra imtahan başlayır.
5. **İmtahan müddəti 3 saatdır.**
6. İmtahanda sizə təqdim olunan 3 mövzudan (1 mühakimə, 1 təsvir, 1 təhkiyə mövzusu) birini seçərək həmin mövzu üzrə **minimum 420 söz** həcmində inşa yazmalısınız.
7. İnşa (esse) yazarkən abituriyent:
    - öz fikirlərini aydın və savadlı şəkildə ifadə etməli;
    - mövzunun mahiyyətini açmalı və dolğun əhatə etməli;
    - yazının tərkib hissələri (giriş, əsas hissə və nəticə) arasında məntiqi rabitə yaratmalı, abzaslarla fərqləndirməli və fikirlərini məntiqi ardıcıllıqla ifadə etməli;
    - ictimai-siyasi problemlərə yaxşı bələd olduğunu nümayiş etdirməli;
    - ictimai-siyasi problemləri təhliletmə, ümumiləşdirmə və məntiqi nəticəçıxarma qabiliyyətini nümayiş etdirməli;
    - fikir və düşüncələrini anlaşıqlı, məntiqli, rabitəli və aydın surətdə, ədəbi dilin normalarına (qrammatika, orfoqrafiya, durğu işarələrinin işlənməsi qaydalarına) uyğun olaraq ifadə etməli, öz fikir və mühakimələrini əsaslandırmaq üçün mövzuya uyğun 3 və daha çox sitat, iqtibas, nümunə və faktlardan (tarixi hadisələr, bədii parçalar, həyat hadisələri və s.) istifadə etməlidir.
8. İnşa (esse) 10 ballıq şkala üzrə qiymətləndirilir və yekun olaraq "məqbul" və ya "qeyri-məqbul" qiyməti verilir. 5 və ya daha yüksək bal toplayan abituriyent inşa (esse) üzrə “məqbul” qiymət alır və ixtisas seçimi mərhələsində iştirak etmək hüququ qazanır.
9. İnşa (esse) işində özünüz haqqında hər hansı məlumatın (ad, soyad, ata adı, baba adı, təhsil aldığınız məktəbin adı, müəllimin adı, yaşayış yeri və s.) qeyd edilməsi, eləcə də şəxsiyyətinizi müəyyən etməyə imkan verən hər hansı işarənin və ya fərqləndirici nişanın qoyulması qadağandır. Bu tələb pozulduğu halda inşa (esse) **"0" (sıfır) balla** qiymətləndirilir. Bundan əlavə, seçilmiş mövzuya uyğun olmayan və ya **190 sözdən az** həcmdə yazılmış inşalar da **"0" (sıfır) balla** qiymətləndirilir.
10. “İmtahan başlandı” elan edilən andan etibarən imtahan üçün ayrılan vaxtdan səmərəli istifadə edin.
11. Qeydləri aparmaq üçün imtahanda sizə təqdim olunan qeyd vərəqindən istifadə edə bilərsiniz.

**DİQQƏT!** Başqa abituriyentin inşasını (essesini) köçürməyin və öz inşanızın (essenizin) digər abituriyentlər tərəfindən köçürülməsinə yol verməyin. Yazı işlərinin yoxlanılması zamanı aparılan xüsusi araşdırma nəticəsində köçürmə faktı müəyyən edildikdə həmin abituriyentlərin imtahan nəticələri ləğv edilir.

12. **“İmtahan başlandı” elan edildikdən 30 dəqiqə müddət keçənədək imtahandan çıxmağa icazə verilmir.**

## ABİTURİYENTƏ QADAĞANDIR:

1. Abituriyent imtahan zamanı aşağıda göstərilən qadağalara əməl etmədikdə o, imtahandan xaric olunur və onun imtahan nəticələri ləğv olunur:

- saxta sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək;
- imtahan binasına mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, pozan, çanta, məlumat kitabçası, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və ya onlardan istifadə etmək;

**DİQQƏT!** Abituriyentin imtahana qadağan edilmiş vasitə, vəsait və ya əşya gətirdiyi müəyyənləşdirilərsə bu barədə imtahan rəhbəri tərəfindən akt tərtib edilir və bu vasitə, vəsait və ya əşyalar araşdırma aparmaq üçün Dövlət İmtahan Mərkəzinə təhvil verilir.

**DİQQƏT!** Texniki vasitələrin informasiya ötürücülük xüsusiyyətini müəyyənləşdirmək mümkün olmadıqda bu vasitələrin də imtahan binasına buraxılmasına icazə verilmir.

- imtahan binasına yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu kimi əşyalarla daxil olmaq, habelə yemək (qida məhsulları), içki və tütün məmulatları gətirmək;

**DİQQƏT!** Elektron imtahan zamanı kompüter avadanlığının zədələnməsi riskinin qarşısını almaq məqsədilə abituriyentlərin imtahan binasına (zala) su və digər maye məhsullar gətirməsi qadağandır. Zərurət olduqda abituriyentlər içməli su ilə təmin olunur.

- imtahan başlandıqdan sonra hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;
- nizam-intizam qaydalarını pozmaq;
- zalda yerini dəyişmək, gəzişmək, yerindən durmaq, danışmaq, kiməsə kömək etmək və ya kiminsə köməyindən istifadə etmək və bu kimi hallarla imtahanın gedişinə mane olmaq;
- başqası üçün ayrılmış kompüterə (ekrana) baxmaq və ya öz kompüterinə (ekranına) başqasının baxmasına şərait yaratmaq;

- **“İmtahan başlandı” elan edildikdən 30 dəqiqə müddət keçənədək imtahandan çıxmaq.**

2. Abituriyent imtahandan sonra aşağıda göstərilən qadağaya əməl etmədikdə, onun imtahan nəticələri ləğv edilir və barəsində zəruri inzibati və hüquqi tədbirlər görülür:

    - imtahan suallarını çap etmək, tirajlamaq, yaymaq, sosial şəbəkələrdə paylaşmaq və ya bu halların yaranmasına səbəb olmaq.

Əgər imtahan zamanı qaydaların pozulması halları ilə rastlaşsanız, mütləq nəzarətçiyə müraciət edin, nəzarətçi lazımi tədbir görməzsə, imtahan rəhbərinin və ya DİM nümayəndəsinin zala gəlməsini tələb edin.

Zal nəzarətçiləri qeyri-fənn müəllimləridir. Onların vəzifəsi imtahanın gedişi zamanı nizam-intizam yaratmaqdır. “İmtahan başlandı” elan edildikdən sonra sizin onlara sual verməniz, onların sizə yaxınlaşıb hər hansı bir məlumat almaq üçün müraciət etməsi imtahan qaydalarına ziddir.

Zal nəzarətçisinin fəaliyyəti imtahan prosesinin tələblərinə uyğun olmazsa, bu barədə imtahan rəhbəri zala gəldikdə ona məlumat verin.

İmtahan binasından çıxdıqdan sonra imtahanın gedişi ilə əlaqədar şikayətlərə baxılmayacaqdır.

***Sizə müvəffəqiyyətlər arzulayırıq!***